# Sertifikatlaşdırma: davamlı inkişaf



Cəlilabad şəhər Şah İsmayıl Xətai adına 4 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Rəvan İmanov təkcə məktəbdə deyil, Vətən müharibəsində də fədakarlıq göstərmiş müəllimlərdəndir. O, İkinci Qarabağ müharibəsinə könüllü qatılıb, Füzuli, Cəbrayıl və Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Müharibədən sonra müəllim kimi fəaliyyətə başlayan qəhrəman bu gün gənc nəslin vətənpərvər ruhda yetişməsinə töhfə verməkdədir. "Azərbaycan müəllimi" qəzetinin budəfəki həmsöhbəti olan Rəvan İmanov həm Vətən müharibəsindəki yolundan, həm də müəllimlik fəaliyyətindən söhbət açıb.

## Sinifdə də, səngərdə də qəhrəman müəllim

### Rəvan İmanovun həyat hekayəsi

**"Bu torpaqların hər qarışında şəhidlərimizin qanı, qəhrəmanlıq hekayəsi var"**

- "İkinci Qarabağ müharibəsinə qatılmaq şəxsi qərarım idi. Vətənin dar günündə yanında olmaq, onun müdafiə olunmasında iştirak etmək hər kəsin vətəndaşlıq borcudur. Belə çətin gündə sadəcə sinifdə oturub dərs keçməyi özümə sığışdırmadım. Vətənpərvərlik hissi bu qərarın verilməsində böyük rol oynadı. Döyüş yolumuz Füzulidən başlayıb, Şuşada bitdi. Yaddaqalan çox hadisələr olub, ümumiyyətlə, döyüşdəki hadisələr heç vaxt yaddan çıxmaz, çünki bu torpaqların hər qarışında şəhidlərimizin qanı, qəhrəmanlıq hekayəsi var".

Göstərdiyi şücaət ölkə rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilən Rəvan müəllim qələbə xəbərini Şuşada alıb: "Qələbə xəbəri gələndə gecə saatlarında Şuşada idik. Həmin anları sözlə ifadə etmək mümkün deyil, təbii ki, torpaqlarımızın işğaldan azad olunması, şəhidlərimizin qanının yerdə qalmamasına görə sevinc və qürur hissi keçirirdik. Müharibə bitəndən sonra cənab Prezident tərəfindən, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşam. Bu medallar bizə mənəvi cəhətdən böyük stimul verir".

**"Şagirdlərimizə döyüş yolumuz çox maraqlı idi"**

Rəvan müəllimin yaddaşında təkcə cəbhə xatirələri ilə yer almayıb. Sinif otağında da bu qəhrəmanlıq tarixini yaşatmaqda davam edən müəllim şagirdlərinə təkcə coğrafiya fənnini deyil, həm də vətənpərvərlik dərsləri verir. Müharibədən əvvəl də müəllim olmaq üçün ciddi hazırlaşan Rəvan İmanov ilk dərs gününü yada salır: "2020-ci ilin iyul ayında coğrafiya fənni üzrə MİQ imtahanında iştirak etdim. Mümkün 60 baldan 56 bal topladım. Daha sonra Vətən müharibəsi başladı, sinif otağına girməmiş cəbhəyə yollandım. Müharibədən qayıtdıqdan sonra ilk iş günümü səbirsizliklə gözləyirdim. Şagirdlər də öz müəllimlərini görməyə çox həvəsli idilər, çünki bu onlarla ilk tanışlığımız idi. Şagirdlərimizə döyüş yolumuz çox maraqlı idi. Vətən müharibəsi haqqında, keçdiyimiz döyüş yolundan bəhs edərək onların vətənpərvərlik ruhunda böyüməsinə səy göstərirdim. Bu



yolda onları mütəmadi olaraq məlumatlandırıram. Şagirdlərimin vətənpərvər ruhda böyüməsini özümə borc bilirəm".

**"Sertifikasiya imtahanı müəllimlərə bir fürsətdir"**

Bir neçə gün əvvəl sertifikatlaşdırma imtahanında 60 bal toplayaraq maksimal nəticə göstərən müəllim bunun səbəbini belə izah edir: "Sertifikasiya imtahanı müəllimlərə həm maddi cəhətdən köməkdir, həm də özünü qiymətləndirmək üçün bir fürsətdir. Öz güclü və zəif cəhətlərini müəyyən edib, zəif cəhətləri inkişaf etdirmək üçün istiqamət verir. Uğur qazanmaq üçün məqsədin olmalıdır, özünə inanmalısan".

Coğrafiya fənninin tədrisində də daim müasir üsullardan istifadə edən Rəvan müəllim coğrafiya elminin əhəmiyyətinə də xüsusi önəm verir: "Şagirdlərə dərsləri müxtəlif resurslardan istifadə etməklə tədris edirəm. İnternet üzərindən mənbələrdən araşdırma etməklə onları inkişafa istiqamətləndirirəm".

Gənc müəllim söhbətimizin sonunda şagirdlərinə uğur arzulamağı da unutmur: "Şagirdlərimizə ən birincisi, həyatda uğur, xoşbəxtlik arzulayıram. Dövlətimizə, millətimizə layiq bir vətəndaş olmalarını arzu edirəm".

Rəvan müəllim döyüş meydanında olduğu kimi, sinif otağında da məsuliyyətini dərk edir. O, bu gün şagirdlərinə yalnız coğrafiya elmini deyil, həm də vətənə, torpağa bağlılıq dəyərlərini aşılayır. Onun üçün müəllimlik sadəcə peşə deyil, həm də cəmiyyətə, dövlətə xidmət yoludur. O, öz şəxsi nümunəsi ilə sübut edir ki, Vətənə xidmət təkcə silahla deyil, həm də biliklə, təhsil ilə mümkündür. Rəvan müəllimə və onun timsalında gənc nəslin formalaşmasında əməyi olan bütün müəllimlərə uğurlar diləyirik.

**Nilufər HACILI,**
*Lənkəran-Astara üzrə regional təmsilçi*